**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**

**Mingəçevir Turizm Kolleci**

**Publik Hüquqi Şəxsi**

# SƏRBƏST İSLƏRİN YERİNƏ YETİRİLMƏSİ HAQQINDA

# TƏLİMAT

**Tədrisdə Keyfiyyət Təminatı şöbəsi**

**Mingəçevir - 2023**

*Təsdiq edirəm:*

*Mingəçevir Turizm Kollecinin*

*direktoru________________ Kamal Əhmədov*

*14 sentyabr 2023-cü il*

**Mingəçevir Turizm Kollecində sərbəst işlərin yerinə yetirilməsi qaydası**

**1.** "Mingəçevir Turizm Kolleci tələbənin sərbəst işinin yerinə yetirilməsi haqqında Təlimat"ı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 26 dekabr tarixli 354 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın habelə təhsil qanunvericiliyinin qüvvədə olan digər normativ-hüquqi aktlarının (gələcəkdə ediləcək hər hansı əlavə və düzəlişlər nəzərə alınmaqla) tələblərinə uyğun tərtib edilmişdir.

**2.** Təlimat bütün ixtisas qrupları üzrə sərbəst işlərin hazırlanması zamanı təhsil prosesinə şamil edilir.

**3.** Tələbənin sərbəst işi ona verilən tapşırıqların sərbəst və müəllimin rəhbərliyi altında auditoriyadankənar qaydada yerinə yetirdiyi müstəqil işidir. Tələbənin sərbəst işi müvafiq semestr ərzində tədris olunan fənlərin məzmununa aid olmaqla təhsilalanlar tərəfindən həmin fənnin daha dərindən mənimsənilməsini, habelə təhsil proqramı üzrə müəyyən edilən müvafiq kompetensiyaların (ümummədəni və peşə) qazanılmasını təmin etmək məqsədilə həyata keçirilir. Müəyyən edilən sərbəst işlərin müvafiq təhsil proqramın təlim nəticələrinə (PTN) uyğunluğu nəzərə alınmalıdır.

**4.** Tələbənin sərbəst işi fənn müəlliminin təşkilati-metodik işinə daxildir. Müvafiq semestrin əvvəlində, dərslərin başlandığı ilk tədris həftəsi ərzində hər bir fənn üzrə müəllim tərəfindən fənnin məzmununa uyğun olaraq təqdimat və ya 10 sərbəst iş tapşırığı müəyyənləşdirilir və bu barədə müvafiq ixtisas kafedrasına məlumat təqdim edilir.

**5.** Müəllimin rəhbərliyi ilə tələbənin sərbəst işlərinin mövzuları bir qayda olaraq fənnin tədrisindəki mürəkkəb məsələlərin həllinə, tədris prosesində qarşıya çıxan, mühazirə dərslərində və seminar məşğələlərində az və ya qismən toxunulan zəruri problemlərin həllinə yönəlmiş tapşırıqlardan ibarət müəyyən edilir.

**6.** Tələbənin sərbəst iş mövzularının verilməsi və onların qəbul edilməsi prosesi müvafiq ixtisas kafedrası tərəfindən müzakirə edilərək rəsmləşdirilir. FBK rəhbəri sərbəst işlərin qəbul edilməsinə ümumi nəzarəti təşkil edir.

**7.** Ayrı-ayrı fənlər üzrə tələbənin sərbəst işinə görə müəyyən edilən qiymətin maksimum həddi 10 baldır. Sərbəst işlər əlyazma (10 mövzu və hər mövzu 3 səhifə olmaqla 1 balla qiymətləndirilir) və təqdimat (1 mövzu minimum 10-15 səhifə olmaqla 10 balla qiymətləndirilir).

**8.** Vaxtında təqdim edilməyən hər bir sərbəst işə görə "0" bal müəyyən edilir

**9. Təqdimatların qiymətləndirilməsi aşağıdakı meyarlar əsasında aparılır:**

**10-on bal-** tələbə sərbəst iş mövzusunu dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir, nümünələr deyir;

**9-doqquz bal-** tələbə mövzunu tam başar düşür, cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir;

**8-səkkiz bal-** tələbə mövzunu tam başa düşür, lakin ümumi xarakterli bəzi qüsurlara yol verir;

**7-yeddi bal-** tələbə mövzunu yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;

**6-altı bal-**tələbənin mövzunu izah etməsi əsasən düzgündür, lakin mövzunu tam əhatə etmir;

**5-beş bal-** tələbənin mövzunu izah etməsində çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;

**4-dört bal-** tələbənin mövzunu izah etməsi qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;

**3-üç bal-** tələbənin mövzudan xəbəri var, lakin fikrinin əsaslandırmağı bacarmır;

**2-iki bal-** tələbənin mövzudan qismən xəbəri var;

**1-bir bal-** tələbənin mövzudan çox az anlayışı var;

**0-sıfır bal-** tələbə mövzunu izah edə bilmir.

**11.** Tələbənin sərbəst işinin yoxlanılması və qəbulu bir qayda olaraq dərsdən kənar vaxtda həyata keçirilir. Qəbul edilmiş sərbəst işlərin qiymətləri hər semestr üzrə nəzəri təlim prosesinin sonuncu (15-ci) həftəsindən gec olmayaraq fənn jurnalının müvafiq bölməsində qeyd edilir. Fənn jurnalında sərbəst işlərin qiymətlərinin qeyd edilməsinə görə fənn müəllimi bilavasitə məsuliyyət daşıyır.

**12.** Fənnin məzmunundan və xüsusiyyətindən asılı olaraq tələbənin sərbəst işinin növü (şifahi, yazılı, təqdimat və s.) və forması (fərdi iş, qrup tapşırığı, komanda işi və s.) fənni tədris edən müəllim tərəfindən müəyyən edilir. Praktikyönümlü dərslər vizual, audio yaxud əl əməyi olaraq təqdim edilə bilər. Komanda və ya qrup işində tapşırıqların həlində iştirak edən tələbələrin hər birinin sərbəst işə görə maksimal balla qiymətləndirilmək imkanı nəzərə alınmalıdır.

**13.** Sərbəst iş mövzuları, onların hazırlanması, təqdimatı, qəbulu, qiymətləndirilməsi hər bir semestr üzrə birinci tədris həftəsində fənn müəllimi tərəfindən təhsilalanların nəzərinə çatdırılır və fənnin İşçi tədris planında (sillabusda) öz əksini tapır.

Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi, Pedaqoji Şurasının “14” sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 01).